UOT 94(479.24)

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsinin sədri, akademik
haciyev.i1951@gmail.com

BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN DÖVLƏTÇİLİK VƏ DİPLOMATİK FƏALİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/48-57

Məqalədə Behbud ağa Şahtaxtinskinin həyatının ilk illərinə diqqət yetirilmiş, çətin həyat yolu keçmiş, lakin əməksevərliyi və inadlı mübarizəsi nəticəsində adi fəhləlikdən hüquq müdafiəçisinə, peşəkar inqilabçı kimi formalaşmasına yüksəlmişdir. Milli bolşevik kimi fəaliyyət göstərmiş, "Hümmət" təşkilatının yaradılmasında və inkişafında fəal iştirak etmişdir. Bolşevik ideyaları uğrunda mübarizəyə qoşulsa da, ölkənin milli maraqlarını həmişə müdafiə etmiş, bir müddət məsul və şərəfli vəzifələrdə işləmiş, Nəriman Nərimanovun yaxın silahdaşlarından biri olmuşdur. RSFSR-lə bağlanan müqavilənin əsas iştirakçısı olmuş, Türkiyə ilə Rusiya arasında Moskva müqaviləsinin bağlanmasında, Naxçıvanın muxtariyyət statusu əldə etməsində, Qars müqaviləsinin işində fəal iştirak etmiş və tarixi xidmətlər göstərmişdir.

Açar sözlər: Nəriman Nərimanov, Behbud ağa Şahtaxtinski, Moskva müqaviləsi, Qars müqaviləsi, dövlətçilik, diplomatik fəaliyyəti, muxtariyyət.

***Giriş*.** Azərbaycan xalqının tarixində və taleyində mühüm rol oynamış Kəngərlilər, Naxçıvanskilər, Təhmasiblər, Bektaşilər öz görkəmli yetirmələri ilə həmişə diqqəti cəlb etmişlər. Belə tanınmış soylardan biri də Şahtaxtinskilərdir. Ölkəmizdə elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, parlamentarizmin, dövlət quruculuğunun, diplomatik işin və hərb sənətinin inkişafında Şahtaxtinskilərin xüsusi yeri və böyük xidmətləri vardır. Son iki əsrdən artıq bir dövrdə Azərbaycana İsa Sultan Şahtaxtinski, Məhəmmədağa Şahtaxtlı, Əbülfəz Şahtaxtinski, Leyla xanım Şahtaxtinskaya, Baxşəli ağa Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Həbibulla Şahtaxtinski, Elmira xanım Şahtaxtinskaya, Toğrul Şahtaxtinski, Məhəmməd Şahtaxtinski, Aleksis Şahtaxtinski və başqaları kimi görkəmli şəxsiyyətlər bəxş etmiş bu məşhur nəsil [28, s.3] ictimai həyatın bir sıra sahələrində misilsiz xidmətlər göstərmiş, böyük, sanballı töhfələr vermişdir. Fəaliyyət göstərdikləri bütün dövrlərdə Şahtaxtinskilər fədakarlıqlar göstərmiş, Azərbaycanın xoşbəxt gələcəyi uğrunda mərd mübarizlər olmuşlar.

Şahtaxtinski sülaləsinə ad-san qazandırmış, Azərbaycana baş ucalığı gətirmiş nümayəndələrindən biri olan Behbud ağa Şahtaxtinskinin də xüsusi yeri vardır. Bu görkəmli dövlət xadimi diplomat, ensiklopedik bilik sahibi, millətinin cəsarətli müdafiəçisi, tanınmış publisist, mükəmməl siyasi məqalələr müəllifi, qətiyyətli və qorxmaz azərbaycanlı kimi geniş şöhrət qazanmışdır.

Behbud ağa Şahtaxtinskinin həyatının ilk illəri. Behbud ağa Əliağa oğlu Şahtaxtinski 1881-ci ildə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasının Şahtaxtı kəndində bəy ailəsində anadan olmuşdur [8, v.1]. O, kənd məktəbini bitirdikdən sonra işləmək üçün Bakıya gəlmiş, fəhlə sinfinin sıralarına daxil olmuş, ictimai-siyasi həyatda iştirak etmişdi.

Behbud ağa Şahtaxtinski həyatının bu dövrü haqqında öz tərcümeyi halında yazmışdı: "Mən keçmiş hökumətin təsdiq etmədiyi bəy təbəqəsindən çıxmışam. Atamın on iki desyatin torpağı var idi, özü becərirdi, elə kasıb idi ki, dörd oğlu kənd məktəbindən başqa heç bir məktəbə daxil ola bilməmişdi. 1895-ci ildə "İran" paroxodunda xidmətçi işləmişəm. 1896-cı ildə isə müxtəlif müsəlman kontor və dükanlarında qulluq etmişəm. 1907-ci ildə mən jurnalistika ilə məşğul olmağa başladım" [8, v.15 arx.].

XX əsrin əvvəlində fəhlə sinfi sıralarında olan B.Şahtaxtinski Bakı dəftərxana işçi birliyinin yaranmasında və formalaşmasında fəal iştirak etmiş və bu ittifaq bağlanana qədər o, dövlət idarə işçiləri birliyi idarə heyətinin üzvü olmuşdu [8, v.22].

Bakıda fəhlə hərəkatı genişlənmiş, siyasi tətillər və nümayişlər artmış, 1903-cü ilin ümumi tətili, 1904-cü ildə Bakının fəhlələri ilə kapitalistlər arasında kollektiv müqavilənin ("Mazut Konsti-

tusiyası") bağlanması B.Şahtaxtinskinin proletar sinfi şüurunun, siyasi tərbiyəsinin, döyüş təcrübəsinin və inqilabi fəallığının artmasına güclü təsir etmişdi [24, s.21].

B.Şahtaxtinski bu dövrdə Bakı kontor qulluqçuları ittifaqında xəzinədar işləmiş, eyni zamanda elmi biliyinin artırılması ilə məşğul olmuş və hüquq müdafiəçisi olmuşdu [15, s.158].

XX əsrin əvvəllərində Bakı fəhlələri arasında olan qeyri azərbaycanlılar təşkilatlanır, azərbaycanlılar isə kənarda qalırdılar. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün Azərbaycan ziyalılarından N.Nərimanov, M.Ə.Rəsulzadə, S.M.Əfəndiyev, M.Mövsümov və b. 1904-cü ilin oktyabrında müsəlman dünyasında ilk sosial-demokrat təmayüllü "Hümmət" (Güc) təşkilatını yaratdı [17, s.221]. Hümmətçilər Bakı şəhər fəhlələrinin ən az yarısını təşkil edən azərbaycanlılar arasında inqilabi və siyasi iş aparmağı qarşılarına məqsəd qoymuşdular.

Azərbaycanlı fəhlələri inqilabi hərəkata cəlb etmək sahəsində "Hümmət" təşkilatı böyük iş aparırdı. Azərbaycanlı fəhlələr arasında inqilabi ideyaları yaymaq üçün 1904-cü ilin oktyabrında "Hümmət" qəzetini çıxarmağa başladılar. Bu, Azərbaycan dilində ilk bolşevik tipli fəhlə qəzeti idi. "Hümmət" qəzeti qısa müddət ərzində öz ideyaları ilə mübarizədə N.Nərimanov, S.M.Əfəndiyevlə yanaşı olaraq, B.Sərdarov, H.Sultanov, D.Bünyadzadə və B.Şahtaxtinskidən ibarət peşəkar inqilabçılar dəstəsi yetişdirdi [24, s.22]. Onlar Azərbaycan xalqının demokratik azadlıqlar əldə etməsinə çalışır, mənfur çar məmurlarının özbaşınalıqlarına qarşı çıxır, milli hüquq bərabərliyinin, bərabər seçki hüququnun təmin edilməsini tələb edir, milli-azadlıq hərəkatının genişləndirilməsi uğrunda mübarizə aparırdılar. 1905-ci ildə "Hümmət" qəzetinin nəşri qadağan edildikdən sonra bu peşəkar inqilabçılar öz fəaliyyətlərini müxtəlif yollarla davam etdirdilər.

Behbud ağa Şahtaxtinski 1904-1907-ci illərdə "Şərqi-Rus" qəzetinin Bakı nümayəndəsi, 1907-1918-ci illərdə isə jurnalistlik fəaliyyəti ilə məşğul olmuş, müxtəlif mətbuat orqanları ilə əməkdaşlıq etmişdir. 1912-1913-cü illərdə isə "Baraban" adlı həftəlik yumoristik jurnalın (rus dilində) redaktoru olmuş, məqalələr yazmışdır.

Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyəti. 1917-ci il Fevral burjua inqilabından sonra yaranmış şəraitdən faydalanan "Hümmət" partiyası 1917-ci il martın 3-də öz fəaliyyətini bərpa etdi [23]. Martın ortalarında "Hümmət" təşkilatının ümumi yığıncağında "Hümmət"in rəhbər heyəti seçildi: N.Nərimanov (sədr), üzvlər – H.Sultanov, B.Sərdarov, B.Şahtaxtinski, S.M.Əfəndiyev və b. 1917-ci il dekabrın 17-də "Hümmət" təşkilatının qurultayı toplaşdı. Qurultayda hakimiyyət, fəhlə nəzarəti məsələləri, torpaq məsələsi və milli məsələ, partiya nizamnaməsi, təşkilat işi müzakirə olundu. Qurultay "Hümmət"in MK-sını seçdi. Onun heyətinə D.Bünyadzadə, M.İsrafilbəyov, M.Məmmədyarov, N.Nərimanov, B.Sərdarov, H.Sultanov, B.Şahtaxtinski, S.M.Əfəndiyev və b. daxil oldular. N.Nərimanov MK-nın sədri, D.Bünyadzadə isə katib seçildi [1, s.348].

1918-ci il yanvarın 7-də "Hümmət" təşkilatının M.İsrafilbəyov (sədr), H.Sultanov və B.Şahtaxtinski (müavinlər), D.Bünyadzadə (katib) və İ.Məmmədzadədən (xəzinədar) ibarət yenidən seçilən Mərkəzi Komitəsi kütlələr arasında fəaliyyətini daha da genişləndirdi.

Bakı Xalq Komissarlarının hakimiyyəti dövründə B.Şahtaxtinski əsasən "Hümmət" təşkilatının üzvü kimi fəaliyyət göstərmiş, Kəndli Deputatları Sovetinin yaradılması işində iştirak etmişdi. O, N.Nərimanovla birlikdə Kəndli Deputatlar Sovetlərinin İcraiyyə Komitəsinin tərkibinə seçilmişdi. 1918-ci ilin mayında keçirilən Bakı Qəzası Kəndli Deputatları Sovetinin qurultayı 15 nəfərdən ibarət İcraiyyə Komitəsini seçdi ki, B.Şahtaxtinski də onun tərkibində idi.

Haqlı olaraq qeyd edilir ki, B.Şahtaxtinskinin Bakı XKS dövründəki fəaliyyətinə "Hümmət" təşkilatındakı fəaliyyəti kontekstindən kənarda baxmaq düzgün deyildir. Bir bolşevik kimi o, Azərbaycanın gələcəyini Sovet hakimiyyətindən kənarda təsəvvür etmədiyindən Bakı XKS-nin siyasətinin həyata keçirilməsində yaxından iştirak etmiş, hətta Qafqaz İslam Ordusu Bakını azad etmək üçün hərbi əməliyyatlar apararkən, o bolşevik hakimiyyətini qorumaq üçün fəaliyyət göstərmişdi [24, s.29].

1918-ci il aprelin 25-də Bakı XKS yarandıqdan sonra onun aparatında işləməyə başlayan B.Şahtaxtinski əksinqilabla mübarizə adlanan komissiyada məsul vəzifədə çalışır.

1918-ci ilin iyununda N.Nərimanovun xəstəliyi ilə əlaqədar "Hümmət"in ümumi yığıncağı təşkilatın yeni heyətini seçmiş, iyunun 11-də isə keçirilən iclasda B.Şahtaxtinski sədr, B.Aşirov müavin, D.Bünyadzadə katib seçildilər [1, s.382-383]. B.Şahtaxtinskinin sədr seçilməsi onun bolşevik

xadimləri arasında olan yüksək nüfuzundan xəbər verirdi. B.Şahtaxtinskinin "Hümmət"ə sədrlik etdiyi qısa bir dövr ərzində Azərbaycanda bir sıra mühüm hərbi-siyasi dəyişikliklər baş verdi. Həmin dövr B.Şahtaxtinskinin həyatında ən dramatik və təzadlı hadisələrlə əlaqədardır.

Bu bir faktdır ki, Qafqaz İslam Ordusunun Bakıda Sovet hakimiyyəti yıxılarkən B.Şahtaxtinskinin başçılıq etdiyi hümmətçilər anti-Azərbaycan mövqeyində dayanaraq bolşevik-daşnak Bakı sovetinin müdafiəçiləri sırasında çıxış etmişdilər.

1918-ci il sentyabrın 15-də Bakı şəhəri Qafqaz-İslam Ordusu tərəfindən azad edilərkən bir sıra tanınmış kommunistlərlə yanaşı B.Şahtaxtinski də həbs edilmişdi. Özü bu barədə yazır: "Türklərin hücumu zamanı mən Saray kəndində həbs olundum və Gəncə həbsxanasına aparıldım. Həbsxanada 11 gün qaldıqdan sonra azad olundum. Azad edildikdən iki ay yarım sonra Bakıya gedib ailəmi götürməyə və Bakını tərk etməyə icazə verilmişdi" [8, v.15].

1918-ci ilin dekabrında Naxçıvana gələn B.Şahtaxtinski 1920-ci ilin yayına qədər burada ağır şəraitdə yaşamış və fəaliyyət göstərmişdi. O, Naxçıvanda ictimai fəaliyyətlə yanaşı "Hümmət" təşkilatının bölgədəki qrupun fəaliyyəti ilə də məşğul olmuşdu. Naxçıvanın bu dövr vəziyyəti çətin və mürəkkəb idi. Sosial-iqtisadi vəziyyətin ağırlığı, erməni daşnaklarının mütəmadi olaraq Naxçıvana basqınları, azərbaycanlılara qarşı soyqırımı həyata keçirməsi əhalini və Naxçıvan başbilənlərini müxtəlif addımlar atmağa sövq edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin özünün düşdüyü vəziyyət, Zəngəzurda erməni qaniçənlərinin at oynatmaları onların Naxçıvana lazımı kömək göstərməsinə imkan vermirdi. Ona görə də Cəfərqulu xan, Tağı bəy Səfiyev və onların tərəfdarları İran ilə birləşməyi, Böyük xan, Xəlil bəy və onların tərəfdarları Türkiyə ilə birləşməyi tələb edirdilər. Mirzəlibəy Bektaşov, Nəcəfqulu Nəcəfov, Əhməd Əzimov və başqaları Naxçıvanın istiqlaliyyət yolunu Sovet Rusiyasında, Sovet hakimiyyətində görürdü. B.Şahtaxtinski üçüncü qüvvələrlə birləşərək Naxçıvanı düşdüyü ağır vəziyyətdən çıxarmağa çalışırdı.

Naxçıvan Qaçqınlar Komitəsinin sədri kimi fəaliyyət göstərən Behbud ağa Şahtaxtinski bölgədəki qaçqınların yerləşdirilməsi, onların ərzaqla təmin edilməsi ilə məşğul olmuş, vəziyyəti sabitləşdirə bilmişdi [18]. Qaçqınlar Komitəsinin sədri olmaqla yanaşı B.Şahtaxtinski Naxçıvanda ictimai-təminat, mühacirlərə kömək komissiyasında, sonra isə sahibsiz uşaqlar evinin direktoru vəzifəsində də çalışmışdı [19, s.18].

Naxçıvanın həm özünün qarşılaşdığı vəziyyət, həm də İrəvan, Zəngəzur, Vedibasar və Dərələyəzdən qovulmuş 500 min müsəlman qaçqının böyük bir hissəsinin Naxçıvana gəlməsi vəziyyəti daha da mürəkkəbləşdirmişdi.

B.Şahtaxtinskinin 1919-cu ilin sonunda general-qubernatora göndərdiyi məktubda qaçqınların sayının 39.005 nəfər olduğunu yazmışdı [31, v.3]. Behbud ağa yurd-yuvalarından didərgin düşmüş soydaşlarının maddi təchizatı, onların yerləşdirilməsi sahəsində əlindən gələni edirdi. Onun səyi nəticəsində 15 min qaçqın qəza mərkəzlərində və bir sıra kəndlərdə açılmış pulsuz yeməkxanalara təhkim olunmuş, Naxçıvan, Şərur və Ordubadda yetim qalmış uşaqlar üçün uşaq evləri açılmışdı.

B.Şahtaxtinski Naxçıvan İnqilab Komitəsi ilə birlikdə Təbriz şəhərində Naxçıvanın ticarət nümayəndəliyini yaratmış, qaçqınları çörəklə, ev əşyaları ilə təmin etmək üçün Azərbaycan hökumətinə, RSFSR hökumətinə, Təbriz, Xoy hakiminə, Maku sərdarına müraciət edir, iqtisadi və ticarət əlaqələrini möhkəmləndirməyə çalışırdı.

Qaçqınlara müəyyən yardımlar edilsə də bu tələbatı tam ödəmirdi. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyi qaçqınlara müxtəlif yardımlar edirdi. Diplomatik nümayəndə M.X.Təkinski hərbi attaşesini iki dəfə Naxçıvana göndərmiş və 400 min manat yardım etmişdi. Azərbaycan Xarici İşlər Komissarlığı qaçqınlara yardım üçün Naxçıvan Milli Şurasına 400 min manat vəsait versə də, bu məbləğ onların ehtiyacını ödəmirdi. Bununla belə, B.Şahtaxtinskinin həyata keçirdiyi genişmiqyaslı işlər, qaçqınlıq nəticəsində sahibsiz qalmış uşaqları qoruyub saxlaya bilən uşaq evinin yaradılması ilə problemin qismən də olsa həllinə nail olmuşdu.

Behbud ağa Şahtaxtinskinin dövlətçilik fəaliyyəti. 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, Sovet rejiminin bərqərar olması bir çox siyasi xadimlər kimi B.Şahtaxtinskinin həyatında da mühüm dəyişikliklərə səbəb oldu. Azərbaycanda bolşevik çevrilişi baş tutan kimi partiya onu təcili Bakıya dəvət etdi.

Azərbaycan İnqilab Komitəsinin 19 may 1920-ci il tarixli qərarı ilə Ermənistanla danışıq aparmaq üçün N.Nərimanovun rəhbərliyi ilə 5 nəfərdən ibarət nümayəndə heyəti müəyyən edilir ki, B.Şahtaxtinski də onun üzvü idi [2, s.81]. 1920-ci ilin iyunun sonlarında Ə.Qarayevin Hərbi Dəniz İşləri Komissarı təyin edilməsindən sonra N.Nərimanovun təqdimatı ilə Azərbaycan İnqilab Komitəsi B.Şahtaxtinskini Xalq Ədliyyə Komissarı vəzifəsinə təsdiq edir.

1920-ci il mayın 20-də RK(b)P MK Siyasi Bürosu "Azərbaycan haqqında məsələ" müzakirə edir. İkitərəfli münasibətləri müəyyənləşdirməkdən ötrü danışıqlara başlamaq üçün Azərbaycana müraciət etmək Xalq Xarici İşlər Komissarlığına tapşırılır. RSFSR Xalq Xarici İşlər komissarı G.Çiçerin N.Nərimanova nota ilə müraciət edir. Notada daimi qarşılıqlı münasibətlərin qurulmasından ötrü Moskvaya səlahiyyətli nümayəndə göndərmək təklif edilir. G.Çiçerinin notası tezliklə qəzetlər vasitəsilə bəyan edildi. 1920-ci il iyulun 13-də isə AK(b)P MK bürosu siyasi, hərbi və iqtisadi xarakterli bir sıra məsələləri aydınlaşdırmaq üçün Azərbaycan SSR-in nümayəndəsi kimi Moskvaya – RSFSR Xalq Komissarları Sovetinə gedəcək Behbud ağa Şahtaxtinskinin məruzəsi haqqında məsələni müzakirə etdi. Azərbaycan SSR ilə RSFSR arasında qarşılıqlı münasibətlər və B.Şahtaxtinskiyə veriləcək direktivlər barəsində məsələlər iyulun 15-də AK (b)P MK bürosunda yenidən müzakirə olundu və büro xüsusi komissiyaya təklif etdi ki, Azərbaycan SSR-in RSFSR-dəki nümayəndəsi B.Şahtaxtinski üçün direktivlərin müddəalarını işləyib hazırlasın [5, v.104].

1920-ci il iyulun 15-də Azərbaycan İnqilab Komitəsi Xalq Ədliyyə komissarı B.Şahtaxtinskini fövqəladə səlahiyyətli nümayəndə təyin etdi və ona "RSFSR hökuməti ilə bütün məsələlər, istər siyasi, istərsə də iqtisadi məsələlər barədə danışıqlar aparmaq və sonradan təsdiq olunmaq şərti ilə, Azərbaycan SSR adından hər cür müqavilə və öhdəliklər imzalamaq üçün" mandat verdi [10, v.102].

Səlahiyyətli nümayəndə kimi fəaliyyətinin ilk günlərindən B.Şahtaxtinski Azərbaycanın milli maraqları mövqeyindən çıxış edərək, Sovet Rusiyasının bolşevik rəhbərliyi qarşısında respublikanın suverenliyi və ərazisi bütövlüyünün qorunması məsələsini ardıcıl və qəti qoyurdu. Bunu onun Moskvadakı fəaliyyəti dövründə Sovet Rusiyasının rəhbərləri V.Leninə və G.Çiçerinə göndərdiyi məruzələr və teleqramlar bir daha sübut edir.

1920-ci il iyulun 26-da Moskvaya gələn Azərbaycan SSR-in Xalq Xarici İşlər komissarı M.D.Hüseynovu Azərbaycan SSR-in daimi nümayəndəsi B.Ə.Şahtaxtinski ilə birlikdə V.İ.Lenin və G.V.Çiçerin qəbul etdilər. Azərbaycan Respublikası hökumətinin səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin Sovet Azərbaycanının vəziyyəti haqqında gətirdiyi materiallarla ətraflı tanışlıqdan sonra G.Çiçerin 1920-ci il avqustun 4-də RK(b)P MK Siyasi Bürosuna məktubla müraciət etdi. Məktubda yazırdı: "... Şahtaxtinski Sovet Azərbaycanının ağır və birmənalı olmayan vəziyyəti haqqında çoxlu material gətirmişdir. Qırmızı Ordu hissələrinin yerlərdə komandirləri Azərbaycan hökuməti ilə qətiyyən hesablaşmırlar, özbaşına, necə gəldi hərəkət edirlər və onların himayəsi ilə əsl müstəmləkəçilik siyasəti yeridirlər" [34, s.135]. G.Çiçerin "müstəmləkəçiləri cilovlamaq məqsədi ilə" təcili tədbirlər görməkdən ötrü bu məsələni öyrənmək üçün xüsusi komissiya yaratmağı təklif etmişdi.

Aprel işğalından sonra Ermənistanın Azərbaycanın Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrinə ərazi iddialarından Sovet Rusiyası Cənubi Qafqaz üzərində nəzarətinin tam bərpa olunması üçün məharətlə istifadə edirdi. Məhz bu məqsədlə Sovet Rusiyası münaqişə tərəfləri arasında vasitəçi kimi çıxış etməyə çalışırdı. Onun vasitəçiliyi əslində Ermənistanın iddia etdiyi Azərbaycan torpaqlarına Qırmızı Ordunun yeridilməsi və sonradan bu qüvvədən Azərbaycana və Ermənistana qarşı təzyiq vasitəsi kimi istifadə etmək idi. Bunun üçün Sovet Rusiyası Azərbaycan rəhbərliyinin xəbəri olmadan daşnak hökuməti ilə birbaşa danışıqlar aparır və Naxçıvanın, Zəngəzurun və Qarabağın taleyini həll edirdi.

RSFSR ilə Ermənistanın daşnak hökuməti arasında Azərbaycana birbaşa daxil olan dördü mübahisəli ərazi məsələsinə aid 6 bənddən ibarət müqavilə 1920-ci il avqustun 10-da bağlandı. Müqavilənin ikinci bəndində deyilirdi: "Ermənistan Respublikası qoşunlarının yerləşdirilməsi üçün bu sazişlə müəyyən edilmiş zolaqlar istisna olmaqla mübahisəli vilayətlər Qarabağ, Zəngəzur qəzası və Naxçıvan diyarı RSFSR qoşunları tərəfindən tutulur" [9, v.33].

Bu müqavilədən xəbər tutan B.Şahtaxtinski etirazını bildirdi. O, 13 avqust 1920-ci ildə Sovet Rusiyasının Xalq Komissarları Sovetinin sədri V.Leninə və Xalq Xarici İşlər komissarı G.Çiçerinə

göndərdiyi teleqramda birmənalı göstərir ki, "bu müqavilə ilə Ermənistanın daşnak hökuməti erməni xalqı arasında nüfuzunu daha da artırdı" [11, v.14].

Müqavilədə Naxçıvan ərazisinin həmin ölkəyə verilməsi qətiyyətlə pislənilmiş, bu siyasətin Naxçıvana ağır zərbə olacağı, heç vəchlə baş tutmayacağı barədə qəti mövqe bildirirdi. Naxçıvanın Ermənistana verilməsi məsələsinin yolverilməzliyi Leninə məktubla 7 maddədən ibarət tutarlı müddəalarla əsaslandırılmışdır.

B.Şahtaxtinskinin bu məktubunda Naxçıvan ərazisinin daşnak Ermənistanına verilməsinin Şahtaxtı-Maku, Şahtaxtı-İrəvan, Culfa-Təbriz dəmiryollarının Sovet dövlətinin nəzarətindən çıxması demək olduğunu, Qərb dövlətlərinin regionda nüfuzunun artmasına şərait yaradacağını, vilayətdə Şura hökumətinə münasibətini pisləməyə doğru dəyişəcəyini siyasi cəhətdən əsaslandırmışdı. Nəticə etibarilə 13 avqust 1920-ci il tarixli məktub Sovet Rusiyasının yanlış olan, xalqların özlərinin müqəddəratını müəyyən etmək siyasəti ilə ziddiyyət təşkil edən Naxçıvan siyasətinə kəskin etirazın ifadəsi idi [22]. Məktubdakı müddəalar XX əsrin əvvəllərində Naxçıvanı işğaldan qorumaq yollarında böyük fədakarlıqlar göstərmiş Behbud ağa Şahtaxtinskinin apardığı fəal siyasi mübarizə ilə həm yerli əhalinin hüquqlarının qorunmasına, daha çox isə sovet rəhbər dairələrində bu barədə həyəcan siqnalının çalınmasına nail olmağa yönəldilmişdi. Cəsarətli və uzaqgörən bolşevik dövlət xadiminin Rusiya dövlətinin başçısına yazdığı 13 avqust 1920-ci il tarixli məktubunda deyilirdi: "Naxçıvan diyarının əhalisi bir neçə il ərzində (1918-1920-ci illər nəzərdə tutulur – İ.H.) daşnaklardan özünün müstəqilliyini qoruyub saxlamışdır. Bütün ciddi-cəhdlərə baxmayaraq, onlar bu diyarı ələ keçirə bilməmişlər. İngiltərənin işə qarışmasına ehtiyac yaranmışdır ki, o da öz qoşunları ilə bu diyarı tutmuş və əhalinin açıq etirazlarına baxmayaraq onu zorla daşnaklara vermişdir. Lakin ingilis qoşunları buradan getməli olan kimi dərhal üsyan baş verdi. Çoxsaylı topları, pulemyotları və zirehli texnikası olan nizami daşnak qoşunları darmadağın edildi... Əməkçi xalq əldə silah üç il ərzində qanlı mübarizə apararaq daşnaklardan azad olmuş və Azərbaycanla birləşməyə nail olmuşdur. Nəhayət, hazırda heç bir ermənin olmadığı bu diyarın daşnaklara verilməsi ümumilikdə qəbul olunmuş xalqların müqəddəratını özlərinin həll etməsi prinsipini və Sovet Azərbaycanının hüquqlarının açıq-aşkar pozulmasıdır" [11, v.14-15].

"Behbud ağa Şahtaxtinskinin Leninə məktubları" haqqında xüsusi məqalə yazan, bunlardan 20 sentyabr 1920-ci il məqaləsini ilk dəfə tam halda çap etdirən akademik İsa Həbibbəyli çox düzgün olaraq göstərir ki, "Leninə məktublardakı bu cür kəskin və əsaslandırılmış müddəalar Behbud ağa Şahtaxtinskinin zəruri siyasi-hüquqi savada, dünyagörüşünə malik olduğunu göstərir. Eyni zamanda həmin məktublarda ifadə olunan qətiyyətli mülahizələr sadəcə mövcud vəziyyətin sovet rəhbərliyinə çatdırılması demək olmayıb, konkret məsələ ilə bağlı məktub müəllifinin etirazını da ifadə edirdi" [22].

B.Şahtaxtinskinin qəti mövqeyi N.Nərimanovun ona göndərdiyi 1920-ci il 8 sentyabr teleqramında yüksək qiymətləndirilirdi [32, v.64].

1920-ci il sentyabrın 20-də V.Leninə göndərdiyi digər daha geniş və əhatəli məruzəsində B.Şahtaxtinski Sovet Rusiyasını ittiham edərək bildirir: "Ermənistan Rusiya ilə ittifaqdan imtina edir... və nəinki öz müstəqilliyini qoruyur, hətta Rusiyadan yeni ərazilər alır. Rusiya Ermənistanla bilavasitə Azərbaycanla bağlı məsələlər müzakirə edir, lakin Azərbaycanın bundan xəbəri yox idi (11, 13-cü maddələr)" [6, v.2]. B.Şahtaxtinski Qırmızı ordunun Ermənistan-Azərbaycan münaqişəsində roluna toxunaraq bildirmişdi: "Qırmızı ordu bütün qüvvəsi ilə hətta Ermənistanla sərhəd vilayətlərdə belə müsəlman əhalisini tərk edir. Halbuki, daşnakların daimi hücumlarının müsəlman əhalisinin fikri mövcudluğunu qəti təhlükə qarşısında qoyduğunu görmək çətin deyil" [6, v.1-6].

B.Şahtaxtinski bu məktubda Sovet hakimiyyətinin apardığı siyasəti də kəskin tənqid edirdi: "Təəssüf ki, Sovet hakimiyyətinin işi formaca inqilabi, nəticə etibarilə mürtəce olmuşdur... Azərbaycan əhalisi əvvəlcə belə fikirləşirdi ki, Bakıdakı sovet siyasəti yerli hakimiyyətdə olanların işidir. Əhali Moskvaya inanırdı... Lakin burada da tezliklə ümidsizliyə düçar oldu" (Maddə 12) [6, v.7-8].

B.Şahtaxtinski bu məktubunda Türkiyədə, İranda və Qafqazdakı hadisələri təhlil edir, Azərbaycanda vəziyyətin qaydaya salınması üçün 10 maddədən ibarət tövsiyələrini və Şərqdəki işin əsasını təşkil edən 9 maddədən ibarət təkliflərini Leninin nəzərinə çatdırır. Bütün bunlar onu göstərir ki, "Behbud ağa Şahtaxtinski, sözün əsl mənasında, böyük cəsarətə malik vətənpərvər azərbaycançı şəx-

siyyət olmuş və ölkənin, xalqının maraqlarını hər şeydən uca tutmağı" bacaran geniş dünyagörüşünə malik milli bolşevik idi.

Ümumiyyətlə, B.Şahtaxtinskinin qaldırdığı məsələlər Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri N.Solovyovun V.Leninə göndərdiyi "Çevrilişdən sonrakı iki ayda (may-iyun) Azərbaycanda bizim siyasətimiz" adlı məlumat məktubundakı fikirlərlə üst-üstə düşürdü.

Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyəti. B.Şahtaxtinskinin fövqəladə səlahiyyətli nümayəndə kimi Moskvaya səfərinin əsas məqsədi Sovet Rusiyası ilə ikitərəfli münasibətləri hüquqi cəhətdən tənzimləmək idi. Nəriman Nərimanovun tapşırığı ilə B.Şahtaxtinski Sovet Rusiyası ilə sıx ittifaqı bərabərhüquqlu iki dövlətin ittifaqı kimi görmək istəyirdi. Rusiyada yaradılan sovet quruluşunun Azərbaycanda tətbiqini kortəbii deyil, yerli milli xüsusiyyətləri qorumaq şərti ilə görürdü. Bu şərtlər ilk növbədə Azərbaycan SSR-in siyasi və iqtisadi suverenliyinin, ərazi bütövlüyünün və nəhayət milli adət-ənənələrinin qorunub saxlanılması idi. Məhz bu amillər nəzərə alınaraq Nəriman Nərimanovun bilavasitə dəstəyi ilə Sovet Rusiyası ilə danışıqların aparılması üçün B.Şahtaxtinskinin namizədliyi irəli sürülmüşdü.

RSFSR ilə Sovet Azərbaycanı arasında bağlanacaq müqavilələrin layihələri hazırlandı. Azərbaycan SSR-in fövqəladə səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski müqavilənin hazırlanmasında fəal iştirak edirdi. Müqavilənin layihəsi Azərbaycanda da müzakirə olunmuşdu.

RSFSR ilə Azərbaycan SSR arasında müqavilə 1920-ci il sentyabrın 29-da müzakirə olundu. Moskvada aparılan danışıqlar nəticəsində B.Şahtaxtinski ilə G.Çiçerin arasında bir neçə müqavilə imzalandı: xarici ticarətin, poçt, teleqraf və radioteleqram idarələrinin, ərzaq, iqtisadi və maliyyə siyasətinin birləşməsinə dair. Nəhayət, 1920-ci il sentyabrın 30-da RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında və hərbi-dəniz məsələlərinə dair Moskva müqaviləsi imzalandı. Müqavilənin birinci maddəsində deyilirdi: "Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar" [16, s.66] B.Şahtaxtinskinin Moskvada imzaladığı bu müqavilələr əslində Azərbaycan SSR-in müstəqilliyinin itirilməsi və işğalının təsdiqlənməsi, ona hüququ-siyasi əsas verilməsi demək idi. Az sonra B.Şahtaxtinski bağladığı müqavilələrə qiymət verərək, onların "münasibətlərdə xaos və hərcmərclik yaradan" adlandırmışdı [27, s.113-116]. RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış yarımçıq müqavilə əslində Mərkəzin Azərbaycana münasibətində imperiya siyasətini pərdələmək vasitəsi oldu.

Azərbaycan SSR ilə Türkiyə hökuməti arasında münasibətlərin qurulmasında və inkişafında B.Şahtaxtinskinin misilsiz rolu olmuşdu. Eyni zamanda Azərbaycan SSR və onun ayrılmaz hissəsi olan Naxçıvan Türkiyə ilə Sovet Rusiyası arasında müttəfiqlik əlaqələrin yaradılmasında körpü rolunu oynayırdı. Sovet Rusiyasının Naxçıvan məsələsində ikili mövqeyi bu münasibətlərin inkişafına mane olurdu. Belə ki, yuxarıda qeyd etdiyimiz 1920-ci il avqustun 13-də B.Şahtaxtinskinin G.Çiçerinə göndərdiyi teleqramda deyilirdi: "Sovet Rusiyası xalqın tələbinin əksinə olaraq Naxçıvanı daşnaklara verir, halbuki bu yerli müsəlmanların fiziki məhvi təhlükəsi yaradır, necə ki, daşnak Ermənistanında yüzlərlə müsəlman kəndləri dağıdılmışdı" [11, v.14]. Qeyd etməliyik ki, yuxarıda göstərdiyimiz N.Solovyovun V.Leninə məktubunda da "Ermənistan Respublikası yaranarkən onun hüdudlarında 250 müsəlman kəndinin məhv edilməsi" göstərilmişdi.

1920-ci il sentyabrın 20-də V.Leninə göndərilmiş geniş məruzəsində B.Şahtaxtinski bir daha vurğulayırdı: "Türkiyə bizə Şərqin azad edilməsində yardım edə bilər. Lakin Naxçıvanın Ermənistana güzəşt edilməsi, türklərin daşnaklar üzərinə hücumlarına olan maneələr və nəhayət Ermənistana gələcəkdə bir sıra Anadolu ərazilərinin vəd olunması, türklərin bizim siyasətə olan inamını itirir" [6, v.1-8]. Lakin Moskva öz böyük oyununu davam etdirməkdə idi. 1920-ci il 10 avqust müqaviləsinin üçüncü bəndinə əsasən oktyabrın 28-də İrəvanda Sovet Rusiyasının səlahiyyətli nümayəndəsi B.Leqranın daşnak hökuməti ilə bağladığı müqaviləyə görə Naxçıvan və Zəngəzur Ermənistana verilirdi [35, c.728]. Müqavilənin bu maddələri Ermənistanda sovet hakimiyyəti qurulduqdan bir gün sonra, 1920-ci il noyabrın 30-da Azərbaycan Kommunist Partiyasının Siyasi Bürosunun özünün bu hadisə ilə bağlı çağırılmış xüsusi iclasında bir daha təsdiq olundu. Buna baxmayaraq 1920-ci il dekabrın 2-də Sovet Rusiyası ilə Sovet Ermənistanı arasında bağlanmış müqavilədə Naxçıvan Ermənistanın ərazisi kimi göstərilmirdi. Dekabrın 2-də Gümrüdə (Aleksandropolda) Türkiyə ilə daşnak Ermənistan

hökuməti arasında bağlanmış sazişə əsasən Naxçıvan ərazisi Türkiyənin protektoratı altında qalırdı [4, v.86].

Türkiyə ilə daşnak Ermənistanı arasında bağlanmış Gümrü sülh müqaviləsinə münasibətdə də B.Şahtaxtinski aydın və şəffaf mövqe nümayiş etdirmişdi. Bu müqavilə ilə daşnak Ermənistanı məğlub olduğunu etiraf etməli olmuş, Naxçıvan, Şahtaxtı və Şərur ərazilərinə qarışmamaq, referendumla təyin olunacaq idarə formasınadək həmin ərazidə Türkiyənin himayəsinə yerli idarəçilik yaradılmasına razılıq vermişdi.

Rusiya hökuməti bu müqaviləni tanımadığını bildirmiş və Azərbaycan hökumətindən də belə mövqe bildirməyi tələb etmişdi. Azərbaycan hökuməti də bu müqaviləni tanımadı. Çünki Gümrü müqaviləsindən bir gün əvvəl Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatında Moskvanın təzyiqi ilə Naxçıvan və Zəngəzurun Ermənistana verildiyi elan edilmişdi [6, v.58-59]. B.Şahtaxtinski Azərbaycan bolşevik liderlərinə təlqin etməyə çalışırdı ki, Gümrü müqaviləsi tanınmalıdır. Həm də bildirirdi ki, türklərin mövqeyini müdafiə etməklə torpaqlarımızı xilas etmək mümkündür. Təsadüfi deyildir ki, B.Şahtaxtinskinin bu mövqeyi bir sıra türk diplomatları tərəfindən yüksək qiymətləndirilmiş və onu "Azərbaycanın xarici siyasətinin rəhbəri" adlandırmışlar.

Azərbaycan Hərbi İnqilab Komitəsinin məlum bəyanatı Naxçıvanda vəziyyəti gərginləşdirdi və dekabrın 5-dən etibarən yerli əhalinin kəskin etiraz çıxışlarına səbəb oldu. Naxçıvanlıları sakitləşdirmək üçün B.Şahtaxtinski Naxçıvana göndərildi. Naxçıvana gələn B.Şahtaxtinski yerli əhali ilə görüşləri zamanı bölgənin taleyi ilə bağlı suallara cavabında açıqcasına demişdi: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunlar ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər" [33, s.44]. Beləliklə, B.Şahtaxtinski siyasi uzaqgörənliklə, milli dövlətçilik mövqeyindən çıxış edərək, Naxçıvanın Ermənistana verilməsinə açıq etirazını bildirir və Türkiyənin bu məsələdə oynaya biləcəyi rolu önə çəkir. Naxçıvan əhalisinin etiraz səsi və türk qoşunlarının Naxçıvanda yerləşməsi Sovet Ermənistanının İnqilab Komitəsini 1920-ci il dekabrın 28-də bu məsələ ilə bağlı xüsusi bəyanat verməyə məcbur edir. Bəyanatda Ermənistan rəhbərliyi öz ərazi iddialarını pərdələmək üçün, Naxçıvanın özünün müqəddəratını təyin etmək hüququnun olmasına razılığını verir [29, s.301].

Naxçıvan ətrafında vəziyyətin kəskinləşməsi və bu məsələnin qarşıdakı Rusiya-Türkiyə danışıqları zamanı çətin müzakirə mövzusu olacağını nəzərə alaraq 1921-ci il yanvarın 12-də AK(b) P MK Siyasi və Təşkilat Bürolarının birgə iclası öz qərarı ilə B.Şahtaxtinskini Hərbi-İnqilab Şurasının mandatı ilə Naxçıvana komissar təyin etdi [38, s.70]. Həmin ilin yanvarında Azərbaycan SSR, Ermənistan SSR və RSFSR-in nümayəndələrinin Naxçıvan bölgəsi əhalisinin Azərbaycan və Ermənistan inqilab komitələrinin bəyanatlarına münasibəti ilə bağlı keçirdikləri rəy sorğusunda əhalinin 90 faizindən çoxu mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi [30, v.79].

Diyarın ictimai-siyasi vəziyyətinə yaxşı bələd olan B.Şahtaxtinski Naxçıvana gəldikdən sonra yerlərdə vəziyyətlə tanış oldu, xalqın yaşayış səviyyəsi ilə maraqlandı, çətinliklərin aradan qaldırılması yollarını müəyyənləşdirdi. B.Şahtaxtinski 1921-ci il aprelin 19-da Azərbaycan İnqilab Komitəsinin iclasında "Naxçıvanın siyasi və iqtisadi vəziyyəti haqqında" məruzə etdi. Məruzədə Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında erməni quldurları tərəfindən 240 kəndin dağıdılması, Ermənistan SSR-dən 500 min nəfərdən çox azərbaycanlının öz yurdlarından qovulması, qaçqınların vəziyyəti, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi kimi məsələlərdən bəhs edilmişdir.

B.Şahtaxtinski 1921-ci il aprelin 23-də Naxçıvan SSR-in Fövqəladə Komissarı, həmin ilin iyununda isə Azərbaycan SSR Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarı vəzifəsində saxlanılmaqla Naxçıvan İnqilab Komitəsinin sədri və Xalq Komissarları Sovetinin sədri təyin edildi. Eyni zamanda o həm də Türkiyə-Zaqafqaziya konfransında Azərbaycan nümayəndə heyətinin sədri idi. Qars konfransı dövründə B.Şahtaxtinski həm də Naxçıvan SSR XKS sədri seçildi (əvvəl təyin edilmişdi - İ.H.).

Moskva konfransı ərəfəsində Rusiya diplomatiyası Azərbaycan və Ermənistan nümayəndələrini onun işinə qatmaqla onları Türkiyəyə qarşı qoymaq istəyirdi. Sovet Rusiyası burada erməni məsələsindən istifadə edib Türkiyədən yeni ərazilər güzəştə getməyə nail olmağa çalışırdı. Bununla bağ-

lı konfrans ərəfəsində B.Şahtaxtinski hazırladığı məruzədə bildirdi: "Türkiyə ilə danışıqlarda əsas maneə erməni məsələsidir. Türkiyə ilə sıx ittifaq bağlamaq üçün biz bu məsələni müzakirə obyektinə çevirməliyik" [12, v.194]. B.Şahtaxtinski 1920-ci il dekabrın 11-də Gümrüdən Bakıya M.D.Hüseynova və S.Orconikidzeyə göndərdiyi teleqramda Türkiyə ilə Azərbaycan arasında ikitərəfli müqavilənin bağlanmasını təklif edir və bunu türk xalqının milli-azadlıq hərəkatına mühüm dəstək olacağını bildirir [13, v.194]. Moskva konfransının açılışı günü – 1921-ci il fevralın 26-da B.Şahtaxtinski Moskvadan Azərbaycan SSR-in Xalq Xarici İşlər komissarı M.D.Hüseynova yazırdı: "Türklər konfransda Azərbaycan nümayəndələrinin iştirak etməsini istəmirlər və bildirirlər ki, onlarla Azərbaycan arasında qətiyyən heç bir mübahisəli məsələ yoxdur. Azərbaycanla müqavilə xüsusi bağlanacaqdır. Mən şəxsən konfransda Azərbaycanın iştirakının əleyhinəyəm. Xırda şeylərdə türklərin əleyhinə getmək bizə sərf etmir" [12, v.2]. Beləliklə, B.Şahtaxtinskinin mövqeyi türk nümayəndə heyətinin mövqeyi ilə üst-üstə düşürdü. Türkiyə Azərbaycanla münasibətləri müstəqil, üçüncü tərəfin, yəni Sovet Rusiyasının müdaxiləsi olmadan qurmağa çalışırdı.

B.Şahtaxtinskinin RSFSR Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə yazdığı 13 avqust, 20 sentyabr, 7 oktyabr 1920-ci il və 1 mart 1921-ci il tarixli məktub və teleqramlarda, əlavə etdiyi arayışlarda bolşevik hakimiyyətinin Şərq siyasəti, bu zaman yol verilmiş səhvlər, Rusiya-Türkiyə münasibətlərinin qurulması və bunun Rusiya üçün əhəmiyyəti, Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanın ərazi bütövlüyü problemi, Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət statusu verilməsi, bir sıra ərazilərin coğrafiyası, milli tərkibi və başqa onlarla məsələləri çatdırmış, təklif və mülahizələrini bildirmişdi.

Nəticə. B.Şahtaxtinskinin diplomatik bacarığı və peşəkarlığı, geniş dünyagörüşü, milli mövqeyi Naxçıvan diyarında referendum keçirilməsində, Moskva, Qars müqavilələrində və Naxçıvan məsələsində bir daha özünü açıqlığı ilə göstərmişdi. Rusiya ilə Türkiyə arasında münasibətlərin qurulması və inkişafında B.Şahtaxtinskinin müstəsna əməyi olmuşdu. O, bildirir ki, bu ölkələr arasında münasibətlərin yaxşılaşdırılması həm Rusiya və Türkiyə üçün, həm də Azərbaycan üçün, eləcə də bolşeviklərin şərq siyasəti üçün əhəmiyyətlidir. Rusiya bununla imperialist ölkələrinin təcrid siyasətindən qurtula bilər. Türkiyə isə Sevr müqaviləsinin ağır şərtlərini aradan qaldıra bilər. Həqiqətən də, B.Şahtaxtinskinin proqnozları özünü doğrultdu. Rusiya ilə Türkiyə 1921-ci il martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsini imzaladılar. Bu müqavilə ilə hər iki dövlət beynəlxalq aləmdə mövqelərini möhkəmləndirdi, Türkiyə həm də Şərqi Anadoluda və Qafqaz bölgəsində itirdiyi torpaqlarının əksəriyyətini – 23,6 min kv.km olan Qars, Kağızman, Ərdahan, Oltu, Artvin sancaqlarını bütünlüklə, Batum və Sürməli sancaqlarının da bir qismini geri qaytarmağa nail oldu. Rusiya nümayəndəsinin iştirakı ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında 1921-ci il 13 oktyabrıda böyük xidməti olmuşdur. Bu müqavilə nəticəsində Türkiyə ilə bu respublikalar arasındakı ərazi-sərhəd məsələləri dəqiqləşdirildi, baş verə biləcək münaqişələr əsasən aradan qaldırıldı.

ƏDƏBİYYAT

1. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Birinci cild (XIX əsrin 80-ci illəri-aprel 1920-ci il). Bakı, "Azərnəşr", 1986
2. Azərbaycan İnqilab Komitəsi və Xalq Komissarları Soveti iclaslarının protokolları. Bakı, "Çaşıoğlu", 2009, 554 s.
3. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.379, siy.7, iş 96
4. ARDA, f. 28, siy. 1, iş 55, s.86; Gümrü, Moskva və Qars müqavilələri. Naxçıvan, "Əcəmi" NPB, 2004, s.4.
5. ARDA, f. 379, siy. 7, iş 96
6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİ SSA), f. 1, siy. 1, iş 2a
7. ARPİİ SSA, f.12, siy.3, iş 7410a, v.15 arx.
8. ARPİİ SSA, f.12, siy.3, iş 7410a
9. ARPİİ SSA, f. 158, siy. 6, iş 17
10. ARPİİ SSA, f.609, siy. 1, iş 21

11. ARPİİ SSA, f. 609, siy.1, iş 71
12. ARPİİ SSA, f. 609, siy. 1, iş 94
13. ARPİİ SSA, f. 609, siy.1, iş 94, sürət fondu, № 354
14. ARPİİ SSA, f. 456, siy.1, iş 94
15. Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər. Bakı: "Azərnəşr", 1958, 362 s.
16. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920-iyun 1941). Bakı, "Elm", 2008, 568 s.
17. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). Bakı: "Bakı Universiteti", 2014, 380 s.
18. Cəfərov F. Görkəmli dövlət xadimi və diplomatın Naxçıvandakı fəaliyyəti. "Şərq qapısı" qəzeti, 2011, 12 avqust
19. Əliyev Ə. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı, 1960, 42 s.
20. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 19-cu kitab. Bakı, "Azərnəşr", 2006, 528 s.
21. Həbibbəyli İ. Behbud ağa Şahtaxtinskinin xidmətləri və aqibəti. "Azərbaycan" qəz., 2011, 18 mart
22. Həbibbəyli İ. Behbud ağa Şahtaxtinskinin Leninə məktubları. "Şərq qapısı" qəzeti, 2011, 6 oktyabr
23. "Hümmət" qəzeti, 1917, 6 mart
24. İbrahimzadə F. Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı: RDS "NPM", 2007, 232 s.
25. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, "Azərnəşr", 2011, 474 s.
26. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində. Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, "AzAtaM", 2004, 84 s.
27. Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, 360 s.
28. Məhəmmədağa Şahtaxtlı. Seçilmiş əsərləri. Toplayanı, tərtib edəni və ön sözün müəllifi İsa Həbibbəyli. Bakı: "Çaşıoğlu", 2006, 432 s.
29. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, "Bakı Universiteti", 1996, 328 s.
30. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 1, siy.3, iş 13
31. NMRDA, f.896, siy.9, iş 40
32. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi (RD SSTA), f.588, siy.2, iş 177
33. Sadıqov S. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı, "Elm", 1995, 144 s.
34. Большевистское руководство. Переписка. 1912-1927. Москва, 1996, 340 с.
35. Документы внешней политики СССР. Т II, Москва, 1958, 802 с.
36. Гулиев Дж. К истории образования второй республики Азербайджана. Баку, 1997, 164 с.
37. Нахичеванская проблема в 1920-1921 гг. Ереван, 2010, 452 с.
38. К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Баку, 1989, 324 с.

ИСМАИЛ ГАДЖИЕВ
Академик, Нахчыванское отделение НАНА

ГОСУДАРСТВЕННАЯ И ДИПЛОМАТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ БЕХБУДА АГИ ШАХТАХТИНСКОГО

В статье основное внимание уделено первым годам жизни Бехбуд аги Шахтахтинского, который прошел нелегкий жизненный путь, но благодаря своему трудолюбию и упорной борьбе из рядового рабочего он превратился в правозащитника и профессионального революционера. Он действовал как национал-большевик, принимал активное участие в создании и развитии организации "Гуммет". Хотя он и включился в борьбу за большевистские идеи, но всегда отстаивал национальные интересы страны, некоторое время занимал ответственные и

почетные должности, был одним из ближайших соратников Наримана Нариманова. Он был основным участником договора с РСФСР, принимал активное участие в заключении Московского договора между Турцией и Россией, в получении Нахчываном статуса автономии, оказывал исторические услуги в работе над Карсским договором.

Ключевые слова: Нариман Нариманов, Бехбуд ага Шахтахтинский, Московский договор, Карсский договор, государственность, дипломатическая деятельность, автономия

ISMAIL HAJIYEV
Academic, Nakhchivan Department of ANAS

STATEHOOD AND DIPLOMATIC ACTIVITY OF BEHBUD AGHA SHAHTAKHTINSKI

The article focuses on the first years of the life of Behbud Agha Shahtakhtinski, who went through a difficult life, but as a result of his hard work and stubborn struggle, he grew from an ordinary worker to a human rights activist and a professional revolutionary. He worked as a national bolshevik and took an active part in the creation and development of the organization”Hummet". Although he joined the struggle for Bolshevik ideas, he always defended the country's national interests, worked for some time in responsible and honorable positions, and was one of Nariman Narimanov's close associates. He was the main participant of the contract with the RSFSR, took an active part in the conclusion of the Moscow Treaty between Turkey and Russia, in obtaining the status of autonomy of Nakhchivan, in the work of the Kars treaty and rendered historical services.

Keywords: Nariman Narimanov, Behbud Agha Shahtakhtinski, Moscow Treaty, Kars treaty, statehood, diplomatic activity, autonomy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.